TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

Mr.fix ® Shotcrete 225 AL
(Əvvəlki adı: BETONMIX® Shotcrete 225 AL)

Məhsul haqqında

Mr.Fix® Shotcrete 225 AL, püskürtmə beton istehsalında istifadə olunan maye, qələvi priz tezləşdirici beton qatqısıdır.

İstifadə sahələri

- Tunel, körpü, metro, baraj və yeraltı tədbiqlərində,
- Əyri, qübbəli və sərbəst şəkillər verilmək istənən yərlərdə,
- Tikililərin təmiri və gücləndirmələrində,
- Yamac stabilizasiyasında,
- Üzgüçülük hovuzları, su anbarlarının tikintisində istifadə olunur.

Üstünlükləri

- Betonun geri sıçrama riskini azaldır.
- Tək səfərdə maksimum beton qalınlığının əldə edilməsinə imkan yaradır.
- Betonun erkən müqavimətini artırır.
- Başüstü tədbiqlərdə betonun yapışmasını artıraraq istifadəyi asanlaşdırır.
- **Mr.Fix® Shotcrete 225 AL** -nin tərkibində xlor yoxdur, dəmir təchizatına zərər verməz.

Texniki göstəriciləri

Materialın tərkibi	Xüsusi qeyri-üzvi maddələr
Rəngi	Şəffaf maye
Sıxlığı (piknometr)	1,44-1,50 kq/litr
pH	12.0-14.0

Yuxarıdakı göstəricilər +20°C də və 50% nisbi rütubət üçün verilmişdir.

İstifadə təlimatı

Yaş sistem tədbiqində; dozaj pompası vasitəsiylə ayrı bir xortum ilə nozulun ucundan betona qatılır. Quru sistem tədbiqində; tətbiqdən əvvəl su ilə qarışdırılaraq ayrı bir xortumdan quru beton qarışımına nozulun ucundan əlavə edilir

Mr.fix ® Shotcrete 225 AL
(Əvvəlki adı: BETONMIX® Shotcrete 225 AL)

İstifadə miqdarı

Mr.Fix® Shotcrete 225 AL betondan gözlənilən xüsusiyyətdən asılı olaraq, bağlayıcı (sement, mikro silika, uçucu kül, şlak) miqdarının 3-7% nisbətində istifadə oluna bilər. İstifadə miqdarı tətbiq edilən səthə, mühitin temperaturuna və püskürtmə cihazının tətbiq gücünə uyğun olaraq dəyişgənlik gösdərə bilər. İstehsal olunacaq betonun sinfinə və xüsusiyyətlərinə görə, qabaqcadan laboratoriya sınaqlarında təyin olunan nisbətlərdə istifadə edilməsi məsləhətlidir.

Digər qatqı məhsulları ilə ahəngi

- Mr.Fix® Maxima seriyası və EN 197 standardındaki bütün sementlər ilə istifadə oluna bilər.
- Mr.Fix® Extra RPD, Mr.Fix® Extra Antifreeze 1, Mr.Fix® Extra WP 1, Mr.Fix® Extra Air 80 qatqıları ilə istifadə edilə bilər.
- Plastikliyin azalması nəticəsində meydana gələ biləcək olan çatlara qarşı istifadə olunan, polad və sintetik liflərlə birlikdə istifadə oluna bilər.
- Uçucu kül, mikro silika və şlak kimi mineral qatqılarla birlikdə istifadə oluna bilər.
- Mr.Fix ® Shotcrete 310 AF və 212 AF qatqıları ilə qarışdırılmamalıdır
- Əlavə qatqılar ilə birlikdə istifadədən əvvəl uyğunluq sınaqları aparılmalıdır.

Diqqət edilməsi lazım olan xüsusiyyətlər

- Doza miqdarına təsir edəcək faktorlardakı dəyişmələrə tez-tez nəzarət edilməlidir.
- İstifadədən əvvəl, beton komponentlərinə və beton sinfinə görə uyğunluq sınaqları aparılmalıdır.

Saxlama şərtləri

+5 ilə +35°C arası temperaturda, donmadan və birbaşa günəş şüalarının təsirindən qorunaraq saxlanılmalıdır. Məhsul donduğu halda, isidilərək donu açılmalı və homogen hala gəlincəyə qədər qarışdırılmalıdır. Hava təzyiqi ilə qarışdırılmamalıdır. Aliminyum qablaşdırmalarda saxlanılmamalıdır.

Saxlama müddəti

Düzgün anbarlama şərtlərində, istehsal tarixindən etibarən 6 aydır. Qablaşdırma açıldıqdan sonra qısa müddət ərzində istifadə edilməsi məsləhət görülür. Məhsulda çökmə olarsa qarışdırılaraq istifadə edilməsi tövsiyə olunur.

Mr.fix ® Shotcrete 225 AL
(Əvvəlki adı: BETONMIX® Shotcrete 225 AL)

Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, iş və işçi sağlamlığı şərtlərinə uyğun iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Materialın qıcıqlandırıcı təsirlərinə görə, dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su ilə yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tədbiq olunan sahələrə qida məhsulları buraxılmamalıdır. Uşaqların əllərinin çatmayacağı yerlərdə anbarlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

Cavabdehlik

Şirkətimiz sadəcə məhsulun keyfiyyətinə cavabdehdir. Məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflər xaricindəki və/və ya xətalı istifadələrdən şirkətimiz cavabdehlik daşımır. Daha ətraflı məlumat üçün məhsul kitabçası istəməyiniz və ya şirkətimizin cavabdehləri ilə əlaqə saxlamağınız xahiş olunur.

KARTAŞ KIMYA MMC

Sumqayıt Sənaye Parkı,Kimyaçılar küçəsi 1, AZ 5002

Sumqayıt şəhəri, Azərbaycan

www.mrfix.az

Tel: +994 12 310 88 55 , +994 10 347 00 10